

**Niridə MİSİR**

## Düşə

Saç alasan şəlalədən,
Hörüyün dərəyə düşə.
Bir mahir ovçu olasan
Şikarın bərəyə düşə.

Qibləgahın Vətən ola,
Qara saçın dən-dən ola.
Bal istəyən bəndən ola,
Dərmanı vərəyə düşə.

Dininə İslam deyəsən
Quranınla öyünəsən.
Yaşıldan libas geyəsən
Şeytan vəlvələyə düşə.

Ömür ələkdən ələnə,
Gənclik yenə cilvələnə.
Dəyanətin qürrələnə,
Qocalıq tələyə düşə.

Nuridəyə tən gələsən,
Həyatımın bircəsi, sən.
Nə olar ki, sən gələsən
Yamanlıq fələyə düşə.

## Yeri

Yarama duz basdın, yandı, alışdı,
Göynəyir sinəmin sən olan yeri.
İndi kim sıxıbdı səni köksünə?
Ağrımır köksünün mən olan yeri?

Yanında çən oldum, dumana döndüm,
Sənə yaxşı ikən, yamana döndüm,
Axırda naləli kamana döndüm,
Sızladı qəlbimin bəm olan yeri.

Uyudun saçımın rayihəsində,
Qaldın ürəyimin əhatəsində.
Elə ha fırlandın yer kürəsində
Bilmədin hardadır tən olan yeri.

Xəyallar içində itib qalmışam,
Qasırğan könlümü ütüb-yanmışam,
Yolunun üstündə bitib qalmışam
Gəl, ey saçlarımın dən olan yeri.

## Ürəyimdə

Ömür axdı bulaq kimi,
Sındın kövrək budaq kimi,
Bir nəğməkar dodaq kimi,
Qaldın mənim ürəyimdə.

İllər ötdü, ay dolandı,
Bədənimdə can qocaldı.
Özün verən güllər kimi
Soldun mənim ürəyimdə.

Pörşələndim için-için,
Zalım, gəlmədin nə üçün?
Yoxsa məni yaşatmaqçün,
Öldün mənim ürəyimdə.

## Xocalı gecəsi

Bu yağan qar, qan aglayır,
Gecə keçir, dan ağlayır.
Ürək yanır, can ağlayır,
Gülmə, Xocalı gecəsi.

Yuxuna odmu vurdular?
Külün göyə sovurdular.
Körpələri qovurdular,
Gəlmə, Xocalı gecəsi.

Əriş-arğac yanlış oldu
Naxışlar saralıb soldu.
Əlimdə yarımçıq qaldı
İlmə, Xocalı gecəsi.

Soyqırıma məruz qalan,
Şəhidlik məktəbi olan.
Səni bir gün alar balan
Ölmə, Xocalı gecəsi.

Daşı tarix yaddaşını
Yıxıb kəsdilər başını.
Nuridənin göz yaşını
Silmə, Xocalı gecəsi.
Silmə, Xocalı gecəsi.

## Boş qalıb

Üzü bəri baxan dağlar,
Ruh çıxıb, bədən boş qalıb.
Çarığımı daş aparıb,
Köşəsiz pinəm boş qalıb.

Çiçək çəməndə quruyur,
Bülbül xar olub, zarıyır.
Ərişim, arğac arıyır,
Həvəsiz ilməm boş qalıb.

Kədər sevdi Nuridəni,
Kökəltdi dostu sitəmi.
Məni tək qoydun eləmi?
Yiyəsiz binəm boş qalıb.

## Apar məni də

Oduma , közümə, kül olan gülüm,
Solmuş çəmənimə gül olan gülüm.
Bu dilsiz eşqimə dil olan gülüm,
Apar bu dünyadan, apar məni də.

Sevgisi könlümdə əsir olanım,
Özü yetim kimi yesir qalanım,
Tam ikən bir anda kəsir olanım,
Apar bu dünyadan, apar məni də.

Nuridə çağlayar bulaqlar kimi,
Dili söz tutmayan dodaqlar kimi,
Bir anlıq geri dön qonaqlar kimi,
Apar bu dünyadan, apar məni də.

## Gedək Murova tərəf

Qalaq-qalaq qara düşək,
Qoy uçquna, tara düşək,
İkimiz bir yana düşək
Gedək Murova tərəf.

Zirvəsindən aşaq gedək.
Gün tək işıq saçaq gedək.
Mənzil uzaq, ömür gödək,
Gedək Murova tərəf.

O dağlarda izimiz var,
Dolaylarda sevgi yaşar,
Nuridəni dağ yaşadar,
Gedək Murova tərəf.

Ədalət.-2017.-31 yanvar.-S.4.